**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın vətəndaş Nadirov Fazil və digərləri Mərkəzi Seçki Komissiyasına daxil olmuş 29 dekabr 2009-cu il tarixli 293 saylı müraciəti üzrə**

# R Ə Y İ

**Bakı şəhəri** **31 dekabr 2009-cu il**

**Saat 12:00**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 53 saylı Quba-Qusar seçki dairəsi üzrə Nadirov Fazil və digərləri 2009-cu il dekabr 29-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət edərək, həmin dairə seçki komissiyasının məntəqələrində qanun pozuntularının araşdırılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq araşdırmaya qəbul edilmişdir.Müraciət tam,hərtərəfli və obyektiv surətdə araşdırılmışdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci tələblərinə uyğun olaraq şikayət qanunla müəyyən olmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətdən (hərəkətsizliyinin) baş verilməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə

əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **r ə y ə  g ə l d i m :**

1. Vətəndaş Nadirov Fazil və digərləri Azərbaycan Respublikası Mərkəzi Seçki Komisiyyasına daxil olmuş 29 dekabr 2009-cu il tarixində 293 saylı müraciəti qanunvericilklə müəyyən olmuş şikayətvermə müddəti ötürüldüyündən ərizəçiyə geri göndərilsin.

2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilisin) və surəti müraciyətçiyə göndərilirsin.

Ekspert qrupunun üzvü V.Kazımova